# Sənsizliyin ağrısı

**Bu ifadənin ağırlığı qəddimi əyib gözlərimi dərd yuvası edib, sancısı isə ürəyimi ox kimi dəlir, qardaş! Həsrətin sozalmış dözümümə güc gəlir. Ömrün niyə belə gödək oldu? Nə üçün Allah verən ömrü sənə qıymadılar? Nə idi günahın? Müəmmalara göz yuma bilməməyinmi? Nanəciblərin əməllərini açıq-aydın üzlərinə söyləməyinmi? Verdiyin son qərarmı? Onlar hamısı (ac qarınlarını doyurduqların) bilirdilər ki, sən dediyini eləyəcəksən - uzaqlaşacaqsan və belə bir plan cızdılar...**

Amma... o, dostcanlı və təəssübkeş, əyilməz idi. Heç nədən və heç kəsdən çəkinməz idi. Ürəyi körpə uşaq ürəyi kimi təmiz, kövrək və ləkəsiz idi... vicdanlı idi... haqqı nahaqqa verməyən, qürurunu sındırmayan, vüqarını uca tutmağı bacaran idi...

Xeyirxahlığı qürur doğuran, əyilməzliyi sevdiklərinə fəxarət gətirib cürətsizlərdə xof yaradan, əliaçıqlığı tikə sayanlara ox kimi batan, sözünü sillə edib ağuzəmməzlərin üzünə vura bilən qardaşım - Füzulim! Bu yayım daha ağrılı, daha nisgilli keçdi. Biganəliklər sənsizlik ağrısının kölgəsində qalsa da, günümü göy əskiyə bükməkdədir. Düz on ildir bu amansız dünyada sənsizlik ağrılarımı yazılarımla toxtatmaq istəyərkən qulağıma gəlib çatanlar yenə məni dəhşətə gətirir. Ömrünə qıyan namərdlər bu gün də sənin telefon nömrənlə (iyrənc əməllərindən utanmayaraq) öz yır-yığıncaqlarına səni tanıyanları dəvət edirlər. Bəziləri də çoxdan lal olub, soruşmurlar ki, o nər kimi oğulu məhv edib ətrafında dolaşanları niyə axtarırsınız??? Varlıqları yenə sənin yoxluğunun kölgəsində sürünür. Amma Allah o qədər adildir ki, nankoru və naxələfi, eləcə də haqq-sayını unudanı yaxşı görür. Şükürlər olsun ki, qisasın Onun hökmü ilə alınır, alınacaq da. Çünki ən ədalətli hakim Yaradandır...

Mənim qəfil qonağım, ümid yerim, pənahım olan qardaşım! Harada oluramsa-olum, yoxluğun ürəyimdən dəyirman daşı kimi asılır. Son dəfə dediklərin, adamlar cərgəsində görmək istədiklərinin şərəfsizlikləri (sübut elədilər), Goranboyda öyrəndiklərin və onları qəbul edə bilməməyin çox acılı göynərtidir.

Ləyaqətli və alicənab qardaşım! Səni əlaləhlardan və alamançılardan qoruya bilməməyimizin acısı çoxları üçün dərmansız dərddir. Çox vaxt yoxluğunu ağlıma sığışdıra bilmədiyimdən elə bu yazılarımda da sağlığında olduğu kimi müraciət edirəm sənə. Zamanı qarşısında susdurmağa cəsarəti çatan qardaşımın yaxın düşmənlərini tanıya bilməməsi sinəm altda közə dönüb köksümü qarsalayır. Əslində, istəməyənlərini tanıyırdı Füzuli, tək bir cümləsi ilə elələrinin cavabını da verə bilirdi, lakin qır-qırıntısı ilə yağlanıb, zəhərli ilana dönənin nə vaxtsa onu yatağında çalacağını dilə gətirsə də, ağlına sığışdıra bilmədi. Yəni inanmadı heç kəs... İnanmadı dünyaca haqq-sayının bu cür itirilməsinə. "Yalı artıq düşən köpək yiyəsinin əl-ayağını gəmirər" deyərdi İsa babam. Bir də, bəxtsiz qardaşım, görünür, bizim hər ikimizin taleyinə itirmək və haqq-say məfhumunun tapdanılması yazılıbdır.

Düz on il bundan qabaq elə bu günlərdə toy tədarükü görürdün və nələr eləməmişdin. Sən yeddibiyana yadlara ümman yaxşılıqlar etmisən, möhübünü düzmüsən, o da qala ki, "doğma" hesab elədiyin üzdəniraq mütriflər...

Beləcə ürəyimin sızıltılarına önəm verməyərək yenə o günlərə dönürəm. On il əvvəl bugünkü gün birlikdə Saatlıya gedirdik valideynlərimizi görməyə. Yolda mənə dedin ki, Akifgilə (baldızım oğlu) övladının toyuna getməliyik. Xəbərim olmadığını dedim, təəccübləndin. Elə mənim yanımdaca Akifə zəng vurdun, məni niyə çağırmadığını soruşdun, "zəng elə Sonaya" dedin, nə isə. O gün olan hər şey yadımdadır. Onu bilirəm ki, heç kəs sən ürəkdə ola bilməz. Sən mənim paramparça ürəyimin ən böyük təsəllisi idin. Sən təəssübkeş idin, qədirbilən idin, mərd idin. Məni yandıran odur ki, bəziləri sənin yoxluğunu işləri dara düşəndə yada salırlar, lakin mərdlər də var, yarımçıq ömrünə yanıb-yaxılır, naxələfləri lənətləyir, məzarın başından ayrılmırlar. Anam isə sükuta bənzəyir sənsiz, yoxluğuna inanmaq istəmədiyi yel ətəkli, quş qanadlı Füzulisinin yollarına gözlərini dikərək dağdan aşmış günə dönüb. Sənə həm övlad, həm də ata-qardaş əvəzi olan Fəzlidən təsəlli və dözüm tapıb yaşayır...

Sən evimizin baş sütunu, qardaşsız atamıza oğuldan çox qardaşlıq edən övlad idin, harda olur-olsun (xeyir, ya şər), atamı özündən mütləq irəlidə görmək istəyərdin. Sənin xeyirxahlığını görməyənlər kor idilər, məncə və ya xəbislikdən görə bilmirdilər. Bıçaq kimi batırdın xain və xofluların gözlərinə. Elədiyin yaxşılıqlar sonu görünməyən dənizlərə bənzəyirdi, o qədər böyük idi ki, bəzilərinin dili dönmür onlardan danışa. Nə desinlər? Axı, elələri sənin ayaqqabını geyinsələr də, sənin yerişini yeriyə bilmədilər. Sən, bəzilərinin təbirincə desəm, sərt idin, onlar isə bisoy və unutqandırlar... Lakin yenə Allahıma şükür edirəm ki, O, heç nəyi cavabsız qoymurmuş. Şükür Onun böyüklüyünə, Onun səbri bol, zülmü mütləqdir. Sən, Füzuli Məmmədov hüquq-mühafizə orqanlarında pillə-pillə sıravi polis nəfərindən idarə rəisliyinə qədər yüksəldin, özü də əmisiz, dayısız, alnının təri və bacarığın hesabına. Şəxsiyyətliliyindən qürur duyduğumuz dahi və ölməz liderimiz Heydər Əliyev kimi ulu öndərin ali mükafatına layiq görüldün. O, insan sərrafı idi, yaxşını pisdən seçə bilən idi, O, mərd idi, mərdləri də tanıyırdı. Əslində, mən az olmayan ömrümdə anlamışam ki, özü dəyərli olan dəyərliyə qiymət verə bilirmiş...

Deyirdin - "mənim düşmənim yoxdur, gözü götürməyənlərim var, onları da heçə sayıram, amma bilin ki, əzrayılım evimdədir". Elə də oldu, "ağacı qurd içindən yeyər" - deyib atalar... Bildin, dedin, lakin dediyinə özün də inanmaq istəmədin, çünki qəddar olmayan qarşısındakının kirli niyyətini ağlına gətirə bilməz. Səni hər kəs anladı, qardaş, qarınlarını doyurduqların, adam elədiklərin, oxutdurduqların, ağır anlarında başlarından çəkilmədiklərin anlaya bilmədilər səni və yaxud anlamaq qabiliyyətində ola bilmədilər. Uşaqdan-böyüyə, qocadan-cavana, müəllimdən-xadiməyə kimi səni kim bircə yol görürdüsə, səninlə ünsiyyətdə olurdusa və ya sənə işi düşürdüsə, ürəyinin genişliyinə mat-məəttəl qalırdı. Sən açıq insan idin, heç kəsdən gizlənmirdin, heç kəsə qarşı bədniyyət deyildin. Əksinə, bacardıqca əl tutar, yetim-yesirə sahib çıxar, dərdinə çarə olmağa çalışardın. Sürücünə toy elədin, həmkarlarından özləri və ya qohum-əqrəbaları xəstəxanaya düşərdisə, dönə-dönə gedər, həkimləri ilə görüşər, tapşırardın. Atamın dost-tanışlarına əl tutar, geyim-keçim alar, xeyir-şərlərində doğmalarından əvvəl sinəni qabağa verərdin. Sənin üçün insanların rütbəsi, tutduqları vəzifə və ya mövqeyi önəmli deyildi, çünki bir üzün var idi. Mən bu yazıda ad çəkən deyiləm, lakin nə vaxtsa yaxşıların da, pislərin də adları, ünvanları üzə çıxacaq. Çünki arı bala daraşan kimi yan-yörəndən çəkilməyənlərin biganəliyi bu gün məni çox yandırır. Sənin heç kəsdən umacağın olmazdı, bir addım atana min addım atardın, tək diqqət gözləyərdin (elə mənim özüm kimi) hamıdan və hər kəsdən. Çünki özün çox diqqətcil insan idin. Məsələn, tanınmış hüquqşünas Yusif Mehdiyevə oğulluq elədin, sağlığında da, dünyasını dəyişəndə də, halal xoşu olsun, dəyərli insan idi, müəllimin olmuşdu, atamın da dostu idi. Rəhmətlik ömür-gün yoldaşı Ofa xanım hər vaxt səni göz yaşları ilə xatırlayır və bəzi nankorlardan fərqli olaraq haqq-sayını elə hey dilə gətirirdi... Sən tərəzinin ağır tərəfinə əyilib boyun ətinə dönənlərdən deyildin, elə ona görə də mən sənin xarakterindən varlığında da, yoxluğunda da qürur duymuşam, duyacam da. Sən hamını düşündün, özünü düşünməyə isə nə yazıq ki, macalın olmadı, yəni qoymadılar...

1996-cı ildə Onkologiyada ağır əməliyyat keçirmişdim. Ömrümün ən acılı günlərindəki kimi yenə başımın üstündəydin. Gah Əhliman Əmiraslanovu palataya gətirirdin, gah o biri həkimlərlə görüşürüb məni tapşırırdın, gah da qohum-əqrəbaya zəng vurub yanıma gəlmələrini tövsiyə edirdin. Bəzən də sozalmış rəng-rufuma baxıb fikrə gedirdin. Bir gündə insan neçə dəfə xəstəxanaya gəlibgedər? Sən Çərkəzin yoxluğundan sonra mənim iki qəlbisınıq övladımın da qəhrini çox çəkmisən. Bu gün Əli ayaqları üstündə durub yeriyə bilirsə, halbuki Şofiq həkim ayağının kəsilməsinə qəti qərar vermişdi, çünki bud sümüyünün sınığı dəhşətli halda idi. Sən səhərdən axşamadək palatadan çıxmırdın. Əllərinlə Əliyə yemək yedirirdin. Ömrü uzun olsun Eldar Həsənovun (o vaxt baş prokuror idi), başımıza gələnləri bilib, sənin işə getməməyini anlayışla qəbul edirdi. Yaxşılar həmişə var və olub, dünya yaxşılardan xali deyil. Mən bütün bunlara görə sənə çox borcluyam, qardaş. O qədər biganə və laqeyd qardaşlar tanıyıram ki... Sən məni sınmağa və əyilməyə qiymayan qardaşım, son nəfəsimə qədər sənin dərdin ürəyimdən, gözlərimdən getməz, çünki mən haqq-say itirməyi özümə ar bilənlərdənəm və unutqanlığı da heç kəsə keçməyənlərdənəm...

Ailə bilib pərvanə tək ətraflarında gecə-gündüz dolandığın naxələflərin bütün istəklərini anında yerinə yetirərdin. Elə ki, işləri öydən keçdi, ömrünə qənim kəsildilər. Bizlər isə çox gecikdik o gecə. Sənin bizə son zəngin çirkin niyyətlilərin çoxdan tərtib elədikləri planlarını həyata keçirməyə tələsdirdi... Zamandan ustalıqla istifadə edə bildilər. Biz gəlib çatanda gec oldu. İçkidən, eləcə də törətdiklərindən qorxuya düşərək işıqları söndürüb qaranlığa qısılanların (ayaqqabını bağlayan qaynın) hərəkətlərinə aydınlıq gətirmək və anlamaq iqtidarında deyildik. Olub-bitənləri dərk edə bilmədik o an. Səni xəstəxanaya çatdırmağa tələsdik... Fələkdən də betər zalım olanların və onların muzdlu iş icraçıları (tibb işçisi deməyə dilim gəlmir) axıra qədər əməl sahiblərinin göstərişlərini canfəşanlıqla yerinə yetirdilər. Dünya isə kar və kor olmuşdu, sənin ömrünü kəsənlərin birinə bir nəfər sual verib ki, "necə oldu ki, sizin heç birinizə heç nə olmadı, tək Füzuli yaralandı, özü də arxadan?". Cavaba baxın: " Mən Quran oxuduğum üçün mənə heç nə olmadı". Quranı əlinə alan hansı namərd valideyninə qənim çıxar? Bunu Quran götürərmi? Götürmədi də...

Daş üzlər, donuq baxışlar o gecə fitnəkarların düşündükləri ssenari çox sonralar yadıma 11 sentyabr hadisələri zamanı efirlərdə amerikalıların tez-tez səsləndirdikləri o məşhur ifadəni saldı: "Nyu-York üzərində şeytan var". Biz də o gecə əslində insan cildindəki şeytanın əməllərini görürdük, amma... əslində anlaşılmayan bir şey də yox idi, sadəcə fitnəkarlar oyunlarını gözəl oynadılar. Bizlər isə o gecə gördüklərimizdən dəhşətə gəlib özümüzü itirmişdik. Onların bizə çəkdirdiklərini Allah onlara, əgər qansalar, çəkdirir artıq. O ağır günlərimizdə bizi tərk etməyən, tək buraxmayan, bir an yanımızdan çəkilməyən, haqq-say itirməyənlər də var idi. Məzarı nurla dolsun, atamın yaxın dostu Həsən Mirzə o günlər hər zaman xəstəxanaya gəlib, Füzulidən xəbər bilirdi. Beləlləri çox idi.

Yadıma bu an bir ifadə də düşdü, o da müqəddəs Qurandandır: "Ey insanlar, Allahdan qorxun, həqiqətən Onun əzabı şiddətlidir!" ("Əl-Maidə" surəsi, 2-ci ayə).

Haradan başlayıb, harada fikirlərimi bitirəcəyimi bilmirəm. Bir şeyi isə heç anlaya bilmirəm, namərd namərddir, bəs onun yanında dayananların adı nədir?

Sonda ağlıma yenə bir fikir gəldi - qurban olum öz anama, nə yaxşı ki, məni valideyninə, ümumiyyətlə, böyük bildiklərimə və düşdüyüm ocağa hörmət etmək hissindən uzaqlaşmağa qoymayıb. Nə yaxşı ki, mənim anam atama hər zaman sədaqət edib!

**Bax belə, atamın cəsur oğlu, saçlarına dən düşməyən Füzulim! Sənsizlik ağrısı yazılarımda da məni dağa-daşa salır, fikirlərim haçalanır, amma olsun, mən bacıyam. Hələ sənin dərdindən və yaşadıqlarından yəqin ki, çox söz salacağam. Son düşməninin məhvini görənə qədər. Və əminəm ki, bu olacaq, çünki Sənin ruhun da özün kimi çox güclüdür...**



### *QARDAŞIMA*

**Kim deyə bilər ki, yoxsan,**
**Sən hər an ürəyimdəsən.**
**Nəfəsim gedib-gəldikcə,**
**Fikrimdə, düşüncəmdəsən.**

**Gəl bircə yol aç qapımı,**
**Bu soyxa səbrim tükənib.**
**Betərdən betər olmuşam,**
**Demə ya qismət, ya nəsib.**

**Ahım, naləm ərşə qalxır**
**qəmlə dolu gecələrdə,**
**Daş doğulaydı idbarlar,**
**Azdım niyə - neçələrdə.**

**Anaları mələr qalar**
**həyatına qıyanların,**
**Azarları güclü gələr,**
**bu planı quranların.**

**Dağlar kimi sərt göründün,**
**Ağzuəmməz düşməninə,**
**Ona görə də söz tapmır**
**İblis uydura şəninə.**

**Nə yaxşı ki, vəfalılar**
**Comərdliyini danmırlar,**
**Hər kəsə də kişi deyib,**
**Ay adına qurban olum,**
**O adla xatırlamırlar...**

**Sona Çərkəz**

Ədalət.-2016.- 16 sentyabr.-S.4.